| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | ART101, Azərbaycan incəsənəti tarixi, 3 KU (6 AKTS) |
| | **Departament** | Memarlıq və dizayn departamenti |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/2026-cı tədris ilinin yaz semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Dos. Xəzər Zeynalov |
| | **E-mail:** | khazar.zeynalov@yandex.ru |
| | **Telefon:** | |
| | **Mühazirə otağı** | Neftçilər kampusu, 108-ci otaq |
| | **Məsləhət saatları** | Tələbələrlə razılaşdırılan vaxtlarda |
| **Prerekvizitlər** | - | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | Dərsliklər:<br>1. Arif Hüseynov. Qarabağnamə. Tarixin səhifələri. Bakı, 2020.<br>2. Azərbaycan və dünya incəsənətində soyqırım mövzusu. Bakı, 2016.<br>3. Bayramov S. Kino rəssamlığının tarixi və müasir mənzərəsi. Bakı, 2025, 404 s.<br>4. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı, 2001, 247 s.<br>5. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı, 2007, 397 s.<br>6. Əfəndiyev T. Mədəniyyətdə tarixilik və müasirlik. Bakı, 2011.<br>7. Əkbərova M. Təsviri sənət və onun tədris metodikası. Bakı, 2012.<br>8. Əliyev Z. Zakir Hüseynov. Tənha döyüşçü. Bakı, 2011.<br>9. Əliyev Z. Cəmil Müfidzadə. Cizgilərə hopan ömür. Bakı, 2011.<br>10. Əliyev Z. Eldar Mikayılzadə. İlmələrin hikməti. Bakı, 2013.<br>11. Əliyev Z. XX əsr Azərbaycan heykəltəraşlığının inkişaf mərhələləri. Bakı, 2016.<br>12. Gülməmmədli R. Tofiq Cavadov. Rəng, forma və kompozisiya sərkərdəsi. Bakı, 2013.<br>13. Hacızadə B. Azərbaycanda karikaturanın inkişafı. Bakı, 2008.<br>14. Quliyev R. İncəsənət terapiyası. Bakı, 2025, 256 s.<br>15. Quliyeva V., Pirquliyeva Q. Qarabağ. Tarixi-mədəni irsimizdən. Bakı, 2021.<br>16. Mikayıl Abdullayev. Sərvət (mətnin müəllifi Ə.Məmmədova). Bakı, 2013.<br>17. Reyhan Topçubaşova, İzzət Seyidova, Bədurə Əfqanlı. Sərvət (mətnin müəllifi X.Əsədova). Bakı, 2013.<br>18. Salamzadə Ə., Zeynalov X. Təsviri sənətdə Heydər Əliyev obrazı. Bakı, 2019. | |

<table>
<tr><td></td><td colspan="3">19. Toğrul Nərimanbəyov. Sərvət (mətnin müəllifi Ə.Abdullayeva). Bakı, 2013.<br>20. Таир Салахов. 60 лет (автор текста А.Рожин). Баку, 2008<br>21. Шамили Э. Вектор абстрактного в искусстве<br>22. https://azerbaijan.az/related-information/49<br>23. chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://heydar-aliyev-foundation.org/uploads/pdf_library/237.pdf?v=latest</td></tr>
<tr><td>Kursun təsviri</td><td colspan="3">Fənnin tələbə tərəfindən öyrənilməsi Azərbaycan incəsənəti tarixində qədim dövrdən tutmuş müasir mərhələyədək baş verən bədii prosesləri, mövcud faktları məmimsəməyə, onların mahiyyətini dərk etməyə imkan yaradır. Tədris olunan materiallar Azərbaycan incəsənəti tarixinin bütün əsas dövrlərini tarixi və bədii kontekstdə özündə əks etdirir. Bunun, həmçinin mövcud faktların, bədii üslubların, məktəblərin, ayrı-ayrı sənətkarların yaradıcılığının öyrənilməsi Azərbaycan incəsənət tarixi fəninin əsas vəzifələrindən biridir.</td></tr>
<tr><td>Kursun məqsədləri</td><td colspan="3">Fənnin məqsədi:<br>Fənnin öyrənilməsində məqsəd Azərbaycan incəsənətinin tarixi ardıcıllıq və sənətin növləri əsasında hərtərəfli və ardıcıl surətdə işıqlandırılmasından ibarətdir. Qədim dövr, orta əsrlər dövrü, yeni və müasir dövrlərdə incəsənətin inkişaf xüsusiyyətlərinin dərindən öyrənilməsi nəzərdə tutulur.<br>Bu fənni öyrənən tələbələr Azərbaycan incəsənəti tarixi haqqında bilik və məlumatlarla yiyələnməli və müxtəlif tarixi mərhələlərdə mövcud olmuş bədii üslubları, məktəb və cərəyanları təhlil etməyi bacarmalıdırlar.<br>Bundan başqa tələbələr keçilən mövzu barədə referatlar hazırlanmalı, müəllimin suallarına cavab verməyi bacarmalıdırlar.</td></tr>
<tr><td>Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="3">Fənnin ümumi tədrisi prosesində tələbələr:<br>• Azərbaycan incəsənəti tarixi kursunu biləcək;<br>• Milli təsviri sənət tarixinin inkişaf mərhələlərini mənimsəyəcək;<br>• Bu və digər bədii üslubu, dəst-xətti fərqləndirməyi bacaracaq;<br>• Müxtəlif rəssamların yaradıcılığını və dünyagörüşünü təhlil etməyi bacaracaq.</td></tr>
<tr><td rowspan="3">Tədris metodları</td><td>Mühazirə</td><td colspan="2">X</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td colspan="2">X</td></tr>
<tr><td>Digər</td><td colspan="2">X</td></tr>
<tr><td rowspan="7">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Prezentasiya 1</td><td></td><td>10</td></tr>
<tr><td>Prezentasiya 2</td><td></td><td>10</td></tr>
<tr><td>Davamiyyət</td><td></td><td>5</td></tr>
<tr><td>Quiz</td><td></td><td>10</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td></td><td>30</td></tr>
<tr><td>Final imtahanı</td><td></td><td>35</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| | **Yekun** | | 100 |

| | |
|---|---|
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Prezentasiya**<br>Fənn müəllimi tərəfindən semestr ərzində həftədə iki qoşa saat olmaqla prezentasiya materialları və digər ədəbiyyat əsasında tədris ediləcək. Tələbələr tapşırığı qrup və fərdi şəkildə hazırlamalı və dərsdə təqdim etməlidir. Məzmunundan asılı olaraq, tapşırıqlar Prezentasiya formasında Power Pointda tələb olunacaqdır. Aralıq imtahanına qədər Prezentasiya tapşırığı 10 bal, Final imtaha qədər Prezentasiya tapşırığı 10 bal təyin olunub. **Tapşırığın mütləq tələbə tərəfindən oxunub təqdim edilməsi tələb olunur. Bu tapşırığın məqsədi gələcək təsviri sənət müəllimlərinin təqdimetmə, qısa müddətdə kiçik araşdırma aparmaq vərdişlərinin formalaşdırılması və inkişaf etdirilməsidir.**<br>**Müddəti:** Prezentasiya 1 Aralıq imtahanından əvvəl, Prezentasiya 2 aralıq imtahanından sonra təqdim olunmalıdır. Sonuncu dərs həftəsindən sonra təqdimat etmək üçün əlavə vaxt verilmir. Hər bir tələbəyə təqdimat üçün 10-15 dəqiqə vaxt ayrılır. Tələbələrin öz istəyi ilə təqdimetməyə hazır olduğu zaman gün təyin olunur, təyin olunan gün maksimum 5 tələbə üçün zaman ayrılır. Aprel ayından etibarən təqdimetmə üçün günlər cədvəl şəklində salınacaqdır.<br>**Qeyd:** Prezentasiya Power Point platformalardan istifadə etməklə hazırlanmalıdır. Tələbə öz təqdimatını Microsoft Teams platformasında fənn üçün açılan qrupda öz adına qovluq açıb yerləşdirməlidir. Plagiat olan işlər qəbul edilməyəcəkdir.<br>**Yoxlama (quiz)**<br>İlk iki yoxlama tapşırığı aralıq imtahanından öncə (5 bal), daha ikisi isə may final imtahanından öncə (5 bal) nəzərdə tutulur. **Yoxlamanın məqsədi keçilən mövzular üzrə biliklərin möhkəmləndirilməsi, tələbələrin imtahanda açıq sualların cavablandırılmasına hazırlıqlı olmasına kömək etməkdir.**<br>**İstisna:** Fakültə dekanlığına tələbə öncədən üzrlü səbəbdən (ailə vəziyyəti və səhhətlə bağlı) Prezentasiyada iştirak edə bilməyəcəyi haqda məlumat vermişsə, və ya sonra bununla əlaqədar hər hansı bir sənəd (ərizə və ya arayış) təqdim edibsə, yalnız bu halda tələbəyə yenidən yoxlama keçirilə bilər.<br>**Davamiyyət**<br>Dərsə davamiyyətə görə verilən maksimum bal 5 baldır. Balın miqdarı əsasən: tələbə semestr ərzində fənn üzrə bütün dərslərdə iştirak etdiyi halda ona 5 bal verilir. Fənn üzrə semestr ərzində buraxılmış dərs saatlarının ümumi sayı normativ 25%-dən müəyyən olunmuş (xəstəlik, ailə vəziyyəti və s.)həddən yuxarı olduğu halda tələbə imtahan sessiyasına buraxılmır və onun haqqında müəyyən qərar qəbul edilir.<br>**İmtahanlar**<br>Aralıq imtahanı fevral və mart ayında tədris olunan mövzular üzrə test formasında, final imtahanı aprel və may ayında tədris olunan mövzular əsasında test formasında keçiriləcəkdir. Tələbənin imtahanda iştirakı və ya imtahanın |

| | |
|---|---|
| | buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur.<br>**Fənni bitirmək qaydası**<br>Tələbənin biliyi maksimum 100 balla qiymətləndirilir. Kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60 % və daha yuxarı hesab edilir. Kəsri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.<br>**İmtahan qaydalarının pozuntuları**<br>Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişini pozmaq və köçürmələr qadağandır. Bu qaydaya əməl etməyən tələbənin imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiymət ilə imtahandan kənarlaşdırılır.<br>**Tələbənin davranış qaydaları**<br>Tələbəyə Universitetin daxili nizam-intizam qaydalarını pozmağa və mobil telefondan istifadə etməyə icazə verilmir. |

**Cədvəl**

| **Həftə** | **Tarix** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
|---|---|---|---|
| 1. | 18.02.2026 | Qədim dövr Azərbaycan incəsənəti.<br>Qafqaz Albaniyası incəsənəti | 1. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı, 2001. S. 7-24; 33-38.<br>2. Əfəndiyev T. Mədəniyyətdə tarixilik və müasirlik. Bakı, 2011. S. 237-240.<br>3. Əfəndiyev T. Mədəniyyətdə tarixilik və müasirlik. Bakı, 2011. S. 215-218. |
| 2. | 25.02.2026 | Orta əsrlər dövrü Azərbaycan incəsənəti | 1. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı, 2001. S. S. 41-174. |
| 3. | 04.03.2026 | Azərbaycan memarlıq məktəbləri və onların dekorativ kompozisiyaları<br>İnşaat sənətində bəzək motivləri | 1. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı, 2001. S. 175-196. |
| 4. | 11.03.2026 | Təbriz miniatür məktəbi<br>Qəzvin miniatür məktəbi | 1. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı, 2001. S. 110-131.<br>2. Əfəndiyev T. Mədəniyyətdə tarixilik və müasirlik. Bakı, 2011. S. 240-243. |
| 5. | 18.03.2026 | Azərbaycan dekorativ-tətbiqi sənətləri | 1. Əfəndiyev T. Mədəniyyətdə tarixilik və müasirlik. Bakı, 2011. S. 297-303. |
| 6. | 25.03.2026 | Bayram | |
| 7. | 01.04.2026 | Azərbaycan xalça məktəbləri | 1. https://azerbaijan.az/related-information/49 |

| | | | |
|---|---|---|---|
| | | | 2. chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://heydar-aliyev-foundation.org/uploads/pdf_library/237.pdf?v=latest |
| 8. | 08.04.2026 | **Aralıq imtahanı** | |
| 9. | 15.04.2026 | XVIII əsr Azərbaycan incəsənəti və memarlığı | 1. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı, 2001. S. 175-196. |
| 10. | 18.04.2025 | XIX əsr Azərbaycan incəsənəti. Qacar üslubu XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycan incəsənəti | 1. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı, 2001. S. 197-240.<br>2. Əfəndiyev T. Mədəniyyətdə tarixilik və müasirlik. Bakı, 2011. S. 244-246. |
| 11 | 22.04.2026 | XX əsrin 20-30-cu illərdə təsviri sənət 40-50-ci illərdə təsviri sənətin inkişafı | 1. Əfəndiyev T. Mədəniyyətdə tarixilik və müasirlik. Bakı, 2011. S. 246-250. |
| 12. | 29.04.2026 | 60-80-ci illərdə təsviri sənət | 1. Əfəndiyev T. Mədəniyyətdə tarixilik və müasirlik. Bakı, 2011. S. 251-267; 268-274.<br>2. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı, 2007. S. 148-265.<br>3. Əliyev Z. XX əsr Azərbaycan heykəltəraşlığının inkişaf mərhələləri. Bakı, 2016. S. 61-94. |
| 13. | 06.05.2026 | XX əsr dekorativ-tətbiqi sənəti | 1. Əfəndiyev T. Mədəniyyətdə tarixilik və müasirlik. Bakı, 2011. S. 298-300.<br>2. Əliyev Z. Eldar Mikayılzadə. İlmələrin hikməti. Bakı, 2013. S. 3-256.<br>3. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı, 2007. S. 266-275. |
| 14. | 13.05.2026 | Müstəqillik dövrü təsviri sənəti | 1. Toğrul Nərimanbəyov. Sərvət (mətnin müəllifi Ə.Abdullayeva). Bakı, 2013. |

| | | | |
|---|---|---|---|
| | | | 2. Əfəndiyev T. Mədəniyyətdə tarixilik və müasirlik. Bakı, 2011. S. 268-274 |
| 15. | 20.05.2026 | Azərbaycanda bədii təhsil, onun tədris metodikası və pedaqoji aspektləri | 1. Əkbərova M. Təsviri sənət və onun tədris metodikası. Bakı, 2012. |
| **Final imtahanı** | | | |